# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun tətbiqi və “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 25 iyul tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 334 nömrəli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Uşaq hüquqlarının müdafiəsi üzrə komissiya 11 nəfərdən ibarət aşağıdakı tərkibdə təsdiq edilsin:

**Komissiyanın sədri**

Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini

**Komissiyanın üzvləri:**

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini

Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin müdiri

**Komissiyanın katibi**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin aparıcı məsləhətçisi – Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi.

2. “Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 8 avqust tarixli 141 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “5” mart 2025-ci il

№ 13